# ÖN SÖZ

Əziz şagirdlər və abituriyentlər!

Təhsilin hər mərhələsi sizin qarşınızda yeni imkanlar açır və yeni vəzifələr qoyur. Bu vəzifələrdən biri buraxılış və qəbul imtahanlarına uğurla hazırlaşmaqdır.

Yüksək nəticələrə yalnız sistemli çalışmaq, əzmkarlıq və təhsilə məsuliyyətli münasibət sayəsində nail olmaq mümkündür.

Bununla belə, imtahanlara hazırlaşarkən bilik səviyyənizi etibarlı qiymətləndirmək, hazırlıqda olan boşluqları vaxtında müəyyənləşdirmək olduqca vacibdir. Məhz bu məqsədlə OTK və “Abituriyent” jurnalı redaksiyası “20 variant sınaq imtahanı” layihəsini sizə təqdim edir.

Kitab qüvvədə olan imtahan proqramları və biliklərin qiymətləndirilməsinə dair ən son tələblər nəzərə alınmaqla hazırlanmışdır. Bu sizə biliklərinizi sistemləşdirməyə, hazırlığınızı məqsədyönlü şəkildə davam etməyə və imtahanda özünəinamınızı artırmağa kömək edəcəkdir.

Kitabda təqdim olunan ilk 10 variantla hazırlığınızın mərhələləri üzrə hər öyrəndiyiniz mövzunu hissə-hissə yoxlaya biləcəksiniz. Sonrakı 10 variant isə hazırlığın sonuna doğru özünüzü yekun proqramla yoxlamağa, Dövlət İmtahan Mərkəzinin tələblərinə uyğun imtahan modeli ilə işləyərək nə qədər bal topladığınızı müəyyən etməyə imkan verəcəkdir.

Tapşırıqların düzgün cavabları və qiymətləndirmə meyarları hər bir sınaq imtahanı variantının əvvəlində yerləşdirilmiş QR-kod vasitəsilə təqdim olunur.

Hörmətli müəllimlər, şagirdlər və abituriyentlər!

Bu nəşrin materialları ilə bağlı qeyd və təkliflərinizi bizimlə bölüşməyinizi xahiş edirik. Sizin fikirləriniz bizim üçün dəyərlidir və onlar kitabların gələcək nəşrlərdə daha faydalı və keyfiyyətli hazırlanmasına kömək edəcək.

Hazırlıq prosesində hər birinizə uğurlar, öz gücünüzə inam və imtahanlarda yüksək nəticələr arzulayırıq!